## “Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair Dövlət Proqramı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsində qeyd olunan Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının əlaqələndirilməsi Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə həvalə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 noyabr 2012-ci il
№ 2542

Azərbaycan Respublikası Prezidentinin
2012-ci il 13 noyabr tarixli 2542 nömrəli Sərəncamı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair

## DÖVLƏT PROQRAMI

### 1. Giriş

Statistik məlumatlara əsasən, hazırda dünya üzrə dağınıq skleroz xəstəliyindən əziyyət çəkənlərin sayı 1 milyon nəfərdən artıqdır.

Azərbaycanda dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin sayı 600 nəfərdən çoxdur. Əksər ölkələrdə olduğu kimi, respublikamızda da xəstələnmə hallarının sayı ilbəil artır və il ərzində hər 100000 nəfər əhaliyə 3-4 xəstələnmə hadisəsi qeydiyyata alınır.

Xəstəliyin etiologiyası və patogenezi elmə tam məlum olmadığından, onun müalicəsinin çətinliyi və böyük məsrəflər tələb etməsi dağınıq skleroz problemini dünyanın

bütün dövlətlərində aktual edir. Adekvat müalicəni təyin etmək üçün bu xəstəliyin gedişinin müxtəlif tiplərinin düzgün diaqnostikası vacibdir.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə nevroloji xəstəliklər arasında dağınıq skleroz xəstəliyi cavan şəxslərdə davamlı əlilliyin əsas səbəblərindən biridir. Xəstəlik başlanandan 10-15 il müddətində bu şəxslərin yarıdan çoxu əmək qabiliyyətini itirir və kənar şəxslərin köməyi ilə hərəkət etmək məcburiyyətində qalır. Bu xəstəlikdən ölüm hallarının sayı çox yüksəkdir.

"Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının 2012-ci il 7 mart tarixli 303-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 9 aprel tarixli 606 nömrəli Fərmanına əsasən hazırlanmış "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair Dövlət Proqramı" dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin həyat fəaliyyətinin yüksəldilməsinə, ömürlərinin uzadılmasına, onlara göstərilən tibbi yardımın keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilmişdir.

Dövlət Proqramı 2013-2017-ci illəri əhatə edir və dağınıq skleroz xəstəliyi ilə bağlı problemlərin köklü surətdə həlli üçün bu xəstələrin müalicəsi ilə məşğul olan tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, diaqnostik laboratoriyaların müasir avadanlıq və reaktivlərlə təchiz edilməsi, xəstələrin müalicəsindən ötrü onların spesifik dərman preparatları ilə təmin olunması, bu sahə üçün kadrların hazırlanması və əhali arasında geniş maarifləndirmə işlərinin aparılması istiqamətində tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

## 2. Dövlət Proqramının məqsədi

2.1. Dövlət Proqramının məqsədi aşağıdakılardır:

2.1.1. dağınıq skleroz xəstəliyinin ağırlaşma hallarının qarşısının alınması;

2.1.2. dağınıq skleroz xəstəliyinin diaqnostikası və müalicəsinin təkmilləşdirilməsi;

2.1.3. dağınıq skleroz xəstəliyi ilə bağlı əlilliyin və ölüm hallarının azaldılması;

2.1.4. dağınıq skleroz xəstəliyinin müalicəsi ilə məşğul olan tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi;

2.1.5. xəstələrin dərman preparatları ilə davamlı təminatı;

2.1.6. dağınıq skleroz xəstəliyinin müalicəsi ilə məşğul olan kadrların potensialının gücləndirilməsi;

2.1.7. əhalinin dağınıq skleroz xəstəliyi barədə maarifləndirilməsi.

## 3. Dövlət Proqramının maliyyələşdirilməsi

3.1. Bu Dövlət Proqramının icrası üçün tələb olunan xərclərin maliyyələşdirilməsi müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində "Səhiyyə" bölməsi üzrə nəzərdə tutulmuş vəsait dairəsində həyata keçirilir.

3.2. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin müalicəsi və müayinəsi ilə əlaqədar tələb olunan xərclər barədə dəqiq hesablamaları hər il Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edir.

## 4. Proqram çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər

| **Sıra №-si** | **Tədbirlər** | **İcraçı orqanlar** | **İcra müddəti (illər üzrə)** |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| **1. Dövlət Proqramının həyata keçirilməsi üzrə təşkilati tədbirlər** | | | |
| 1.1. | Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin vahid elektron registrinin və məlumat bazasının yaradılması | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2013 |
| **2. Tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi** | | | |
| 2.1. | Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin aşkar edilməsi və vaxtaşırı müayinələrinin təmin edilməsi məqsədi ilə aşağıdakı tibb müəssisələrinin maqnit-rezonans tomoqrafiya aparatları ilə təchiz edilməsi:<br>Respublika Klinik Xəstəxanası;<br>Bakı şəhəri 3 nömrəli Klinik Xəstəxanası;<br>Abbas Səhhət adına 1 nömrəli Gəncə Şəhər Xəstəxanası;<br>1 nömrəli Sumqayıt Şəhər Xəstəxanası;<br>Lənkəran Rayon Mərkəzi Xəstəxanası | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | <br><br><br><br><br><br>2013<br>2013<br><br>2013<br>2014<br>2015 |
| 2.2. | Dağınıq skleroz xəstəliyinin mərhələsinin müəyyən edilməsi məqsədi ilə tibb müəssisələrinin zəruri avadanlıq və reaktivlərlə təmin edilməsi | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | mütəmadi |
| **3. Dağınıq skleroz xəstəliyinin profilaktikası, müalicəsi və reabilitasiyası** | | | |
| 3.1. | Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin zəruri dərman preparatları ilə davamlı təmin edilməsi | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | mütəmadi |
| 3.2. | Dağınıq skleroz xəstəliyinin diaqnostikası və müalicəsi üzrə klinik protokolların hazırlanması və tətbiqi | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2013 |

| | | | |
|---|---|---|---|
| 3.3. | Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin sanatoriya-kurort və bərpa müalicəsinin təşkili | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, ~~Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu,~~ Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi[1] | mütəmadi |
| 3.4. | Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin sosial-psixoloji və peşəkar reabilitasiyası üzrə proqramların işlənib hazırlanması | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2013-2014 |
| **4. Kadr hazırlığı** | | | |
| 4.1. | Dağınıq skleroz xəstəliyinin diaqnostikası və müalicəsi üzrə mütəxəssislərin hazırlanması, onların peşə biliklərinin artırılması (o cümlədən xarici ölkələrdə) | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2013-2017 |
| 4.2. | Dağınıq skleroz xəstəliyi üzrə mütəxəssislər üçün elmi konfranslar, elmi-praktik seminarlar keçirilməsi, eləcə də onların beynəlxalq konqres, konfrans və simpoziumlarda iştirakının təmin edilməsi | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2013-2017 |
| 4.3. | İlkin səhiyyə xidməti müəssisələrində çalışan tibb işçiləri üçün dağınıq skleroz xəstəliyinin aşkarlanması və müalicəsi üzrə treninqlərin təşkili | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2013-2015 |
| **5. Dağınıq skleroz xəstəliyinə dair maarifləndirmə** | | | |
| 5.1. | Dağınıq skleroz xəstəliyinə dair ədəbiyyat, bukletlər, vərəqələr, plakatlar çap edilməsi | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2013-2015 |

| | | | |
|---|---|---|---|
| 5.2. | Dağınıq skleroz xəstəliyinin profilaktikasına dair məlumatların kütləvi informasiya vasitələri ilə yayılması | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, kütləvi informasiya vasitələri | mütəmadi |

## 5. Dövlət Proqramının həyata keçirilməsindən gözlənilən nəticələr

5.1. Dövlət Proqramının həyata keçirilməsindən gözlənilən nəticələr aşağıdakılardır:

5.1.1. dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi;

5.1.2. dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin həyat fəaliyyətinin yüksəldilməsinə, ömürlərinin uzadılmasına;

5.1.3. əhalinin dağınıq skleroz xəstəliyinin profilaktikası ilə bağlı məlumatlandırılması.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 6 sentyabr 2016-cı il tarixli **1027** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 07 sentyabr 2016-cı il, № 196, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 9, maddə 1464)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 6 sentyabr 2016-cı il tarixli **1027** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 07 sentyabr 2016-cı il, № 196196, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 9, maddə 1464)** ilə “Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair Dövlət Proqramı”nın 4-cü hissəsinin 3.3-cü bəndinin “İcraçı orqanlar” sütunundan “**Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu**,” sözləri çıxarılmışdır.